# Şəhid İbrahim Vəlizadə anıldı

## "Murovdan gələn səda" kitabının təqdimatı keçirilib



**Naxçıvan Dövlət Universitetində "Naxçıvan Qaziləri" İctimai Birliyinin təşkilatçılığı ilə şəhid İbrahim Vəlizadənin doğum günü münasibətilə onun həyatına və döyüş yoluna həsr edilmiş "Murovdan gələn səda" kitabının təqdimat mərasimi olub.**

Əvvəlcə ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Şəhid Ramazan Göydağlının atası Əbülfət ata Vətən müharibəsində və ondan sonrakı hərbi əməliyyatlarda canından keçən Naxçıvanın igid oğullarının qəhrəmanlıqlarından söz açıb. Qeyd edib ki, hər birinin həyatı bir əfsanəyə, dastana dönən şəhidlərimizin əziz xatirəsi daim yaşadılır. Onlar öz igidlikləri ilə tarix yazıb tarixin özünə çevrildilər. Onların qəhrəmanlıq hekayələrinin qələmə alınması vacib amildir.

Şəhid Raqib Hüseynovun anası Rena ana bildirib ki, bu gün bir çox qələm sahibi də bu yolda əlindən gələni edir. Qələmə alınan hər sətir yaddaşlara köçürülür ki, gələcək nəsillər necə qəhrəman oğulların davamçıları olduqlarını bilsinlər.

Tədbirdə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Azərbaycan Respublikasının qalib olduğu haqq savaşında şəhidlərimizin danılmaz zəhmətindən, unudulmaz fədakarlıqlarından söz açaraq qeyd edib: "Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan müzəffər Ordumuz Onun siyasi kursunun davamçısı cənab İlham Əliyevin komandanlığı ilə dövlət-xalq-ordu birliyi nəticəsində 44 gün ərzində işğal altında olan torpaqlarımızı azad etdi. Bununla da ərazi bütövlüyümüz təmin olundu. Bu gün artıq Vətən üçün canlarından keçən qəhrəmanların ruhu şaddır. Kitabın ərsəyə gəlməsində əməyi keçən hər kəsə öz təşəkkürümü bildirirəm. Çünki belə kitablarla bu şanlı tarix yaşayacaq və gələcək nəsillərə ötürüləcək. Belə bir tədbirin ali təhsil ocağında keçirilməsi bizim tələbələrimizə örnəkdir. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirəm", - deyən rektor çıxışının sonunda kitabın müəllifinə uğurlar arzu edib.

Jurnalist Ramiyə Əkbərovanın qələmə aldığı bu kitab, kitabda toplanan fotolar İbrahim Vəlizadənin xatirəsinə ehtiram və onun qəhrəmanlığının gələcək nəsillərə ən yaxşı daşıyıcısı olacaq.

Sonra kitabın müəllifi Ramiyə Əkbərova kitabı şəhidin valideynlərinə təqdim edib. Şəhid İbrahim Vəlizadənin atası Səməd Vəlizadə keçirilən tədbirin təşkil edilməsində göstərilən dəstəyə, kitabın ərsəyə gəlməsində çəkilən zəhmətlərinə görə bir sıra şəxsə fəxri fərmanları təqdim edərək öz təşəkkürünü bildirib.

Qeyd edək ki, tədbirin bədii hissəsində Naxçıvan Dövlət Universitetinin xor kollektivi və Altai teatrının hazırladığı kompozisiya təqdim olunub.

İbrahim kimi vətənpərvər olmaq öz şəxsi maraqlarını Vətən yolunda qurban verməyə hazır olmaq deməkdir. Vətənə bağlılıq hissi hər bir fərdi hərbi xidmət zamanı daha da mübariz və mətin əsgərə çevirir. Əyninə hərbi mundir geyinən hər kəs, Vətəni göz bəbəyi kimi qoruyacağının və bu yolda canını və qanını əsirgəməyəcəyinin andını içir.

İbrahim Səməd oğlu Vəlizadə ömrünün bu yaşına kimi dəyərli, mənalı örnək ola biləcək bir həyat yaşamağı seçmişdi.

Bu fikirlər 44 günlük Vətən müharibəsində itgin düşmüş Vəlizadə İbrahim Səməd oğlunun ad günü münasibətilə keçirilən növbəti tədbirdə deyildi.

Qəhrəmanımızın doğum günü münasibətilə daha bir tədbir onun Şərur şəhər Şəhidlər Xiyabanında ucaldılmış büstü qarşısında təşkil olunub. Tədbirdə Naxçıvan Əlahiddə Ümumqoşun ordunun rəhbərliyi, əsgər, zabit heyəti, daxili işlər nazirliyinin, rayon İcra hakimiyyətinin, idarə və təşkilat rəhbərləri, eləcə də muxtar respublikanın dördbir tərəfindən gəlmiş şəhid ailələri və qazilər, ictimayət nümayəndələri iştirak edib.

Tədbir başlamazdan öncə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni oxundu. İbrahimin büstü önünə tər çiçəklər, əkliller düzüldü.



Tədbir iştirakçılarına İbrahimin həyatı və vətənə xidmətindən söhbət açıldı. Çıxış edən qonaqlar qəhrəmanın ailəsinə səbr diləyərək vətənpərvər bir övlad yetişdirdikləri üçün minnətdarlıq etdilər.

Tədbirin sonunda cəsur döyüşçünün atası Səməd Vəlizadə çıxış edərək göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə, muxtar respublika rəhbərliyinə, ordu komandanlığına və ictimaiyyət nümayəndələrinə ailə adından təşəkkürünü bildirdi.

Qeyd edək ki, Vəlizadə İbrahim Səməd oğlu 1998-ci il iyunun 11-də Şərur rayonunun Vərməziyar kəndində anadan olub. İlk təhsilini Vərməziyar kənd tam orta məktəbində alan İbrahim 2011-2014-cü illərdə Heydər Əliyev adına Hərbi Liseydə təhsilini davam etdirib. İbrahim həmyaşıdlarından seçilən bir gənc olduğundan o, 2018-ci ildə Türkiyədə hərbi təhsil alıb. 2014-2019-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali hərbi təhsilə yiyələnib. Azərbaycan Ordusunun leytenantı olan Vəlizadə İbrahim 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikası Silahlı Qüvvələri tərəfindən erməni işğalı altında olan torpaqlarımızın azad edilməsi və Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə itkin düşüb.

Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunub və onun tapılıb ailəsinə məlumat verilməsi üçün zəruri tədbirlər görülüb, lakin uzun müddətli axtarışlar nəticə vermədiyindən 2022-ci ilin noyabr ayında İbrahim Vəlizadəyə "şəhid" statusu verilib.

Leytenant İbrahim Vəlizadə sağlığında Silahlı Qüvvələrin yaranmasının 100 illik yubileyi münasibətilə "100 illik" medalı, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Kəlbəcərin azad olunmasına görə", "Vətən uğrunda" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif olunub.

Vətənin igid oğlunun xatirəsi əbədiləşdirilərək yaşadığı evin qarşısında xatirə lövhəsi asılıb. Şərur şəhər Şəhidlər Xiyabanında büstü ucaldılıb, eyni zamanda Vərməziyar kənd şəhidlərinin və itkin şəhid İbrahim Vəlizadənin xatirəsinə bulaq da istifadəyə verilib.

5 ilə yaxındır hələ də xəbər alınmayan qəhrəmanımızın sağ-salamat olmasına ümidlərimiz böyükdür. "Oğlum sağdır, hiss edirəm" - deyir Xurşud xanım. Anaların hissiyatı güclüdür. Onlar yaxşı və ya pis bir şey hiss edərlərsə, həyata keçir.

Ümid edirik ki, tezliklə qəhrəman anasına onun həsrətinə son qoyacaq, gözünü yollardan çəkəcək bir xəbər gələr. Ailəyə Allahdan səbr diləyirik.

***Bəxtiyar ƏLİYEV***
***Naxçıvan Şəhid Ailələri İctimai Birliyinin mətbuat katibi***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***